# Ə D Ə B İ Y Y A T Ş Ü N AS L I Q

**UOT 82.316.3**

**ULDUZ QƏHRƏMANOVA***

## "MOLLA NƏSRƏDDİN" JURNALINDA MİRZƏ ƏLƏKBƏR SABİR İMZALARI

*"Hop-hopnamə"nin 2004-cü il nəşrinə əsasən 1906-cı ildə Sabirin "Molla Nəsrəddin" jurnalında 22 satirası: bunlardan 4-ü imzasız, 14-ü "Hop-Hop", 2-si "Molla Nəsrəddin", yerdə qalan 2-si (M.M.) və "Yaramaz" imzaları;1907-ci ildə "Molla Nəsrəddin" jurnalında cəmi 34 satirası: bu satiralardan 3-ü "Hop-Hop" imzası, 2-si "Molla Nəsrəddin" imzası, 2-si "Qabaqda gedən zəncirli" imzası, 23-ü imzasız, yerdə qalan 4-ü "Din dirəyi", "Fazil", "Örümçək", "Boynuyoğun" imzaları;1908-ci ildə 40 satirası və felyetonu: bunun 15-i imzasız, 3-ü "Hop-Hop" imzası, 4-ü "Boynuburuq" imzası, 2-si "Qoca əmu" imzası, yerdə qalanları yuxarıda göstərilən müxtəlif imzalarla çap olunmuşdur.*

*Sabirin 1909-cu ildə "Molla Nəsrəddin" jurnalında 24 satirası: bunun 15-i "Əbunəsr Şeybani" imzası, 2-si "Məstəli şah Gərguci" imzası, 2-si "Güləyən" imzası, 2-si "Ağlar güləyən" imzası, yerdə qalan 3-ü isə "Yarı gönül", "Yetim Mədəli", "Obaşdançı" imzaları;1910-cu ildə "Molla Nəsrəddin" jurnalında 20 satirası: bunun 3-ü "Ağlar güləyən" imzası, 4-ü "İmza:(.....)" imzası, 10-u "(.....)" imzası, yerdə qalan 2-si isə "Məclisdə olan" və "Bağban" imzası; 1911-ci ildə "Molla Nəsrəddin" jurnalında 16 satirası: bunun 5-i imzasız, 10-u "(.....)" imzalı, 1-i isə "Gözü yuxulu" imzaları ilə çap olunmuşdur.*

**Açar sözlər:** *Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Molla Nəsrəddin, jurnal, imza, Hop-hop*

1906-cı ilin aprelində nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı Sabirin satirik istedadının qabarıq şəkildə meydana çıxması üçün ən münasib mətbuat orqanı oldu. "Molla Nəsrəddin" dövrü zaman etibarilə Sabir yaradıcılığında cəmi beş ili (aprel 1906-mart 1911) əhatə etsə də, bu az müddətdə Sabir bir satirik sənətkar kimi təkcə öz vətənində deyil, onun sərhədlərindən çox-çox uzaqlarda da tanındı. Sabirin "Molla Nəsrəddin" jurnalındakı fəaliyyətini diqqətlə izləyəndə onun qeyri-adi satirik istedad sahibi olduğu aydınlaşır. Sabir bu jurnalda hər şeydən əvvəl, qüdrətli inqilabi satira məktəbi yaratdı və bununla da Azərbaycan şerinin inkişafı tarixində yeni və parlaq bir səhifə açdı. C.Məmmədquluzadə təkcə öz əsərlərində, məqalə və felyetonlarında deyil, jurnala çəkdirdiyi illüstrativ materillarda da tez-tez Sabir yaradıcılığına müraciət edirdi.

Sabirin qələmə aldığı real hadisə və obrazlar jurnalın Şmerlinq, Rotter kimi qüdrətli fırça ustalarının rəsmləri ilə müşayiət edilirdi. "Molla Nəsrəddin" jurnalında çap olunmuş illüstrasiya və karikaturların bir qismi də Sabir satiraları mövzusundadır. Bu mövzuda çəkilmiş şəkillərin əksəriyyəti Sabir şeirləri ilə birlikdə, jurnalın eyni nömrəsində buraxılırdı. Belə hallarda "Molla Nəsrəddin" redaktoru şeirin sərlövhəsi altında "şəkil var", yaxud "şəkillərin birinci səhifəsinə bax" deyə kiçik qeydlər verir, həmin nömrədə əsərin məzmununa uyğun şəkil çap edildiyini əvvəlcədən bildirirdi (2, 93).Məmmədova görə satira jurnalı olan "Molla Nəsrəddin"də heç bir açıq imza işlənməmişdir. Redaktorun açıq imzası və bir neçə təsadüf nəzərə alınmazsa, jurnalda getmiş onlarla imzanın hamısı gizli, satirik imzalardır. Bundan başqa, jurnaldakı əsərlərin böyük bir qismi imzasız dərc edilmişdir.

Sabir "Molla Nəsrəddin" jurnalında həm imzasız, həm də 40-a yaxın gizli imza ilə iştirak etmişdir. Molla Nəsrəddin" jurnalında iştirakının lap ilk günündən-1906-cı ilin aprelindən "Millət necə tarac olur olsun, nə işim var?!" misrası ilə başlanan məşhur satirası ilə Sabirlə C.Məmmədquluzadə arasında maraqlı yaradıcılıq əlaqələri yaranır. Bu satira "Molla Nəsrəddin" jurnalında C.Məmmədquluzadənin özünün ruhanilər əleyhinə yazdığı "Niyə məni döyürsünüz?" felyetonunun altında dərc edilmişdi. C.Məmmədquluzadəyə görə Sabirin məcmuəmizdə iştirakı ancaq 8-ci nömrədən başlanır və ona "hop-hop" imzasınıda idarəmiz vermişdir.

X.Əlimirzəyev göstərmişdir ki, "Hop-Hop" imzasının meydana gəlməsi tarixi heç də yuxarıda A.Səhhətin söylədiyi kimi "Millət necə tarac olur, olsun, nə işim var?" şeri ilə başlanmır. Həm də bu imza indiyədək qəbul olduğu kimi təkcə Sabirə məxsus olmamışdır. "Molla Nəsrəddin" jurnalını diqqətlə izlədikdə aydın olur ki, ilk dəfə olaraq mətbuat aləmində "Hop-Hop" imzasından istifadə edən müəllif C.Məmmədquluzadənin özü olmuşdur. Sonralar, 8-ci nömrədən başlayaraq uzun müddət bu imzanı həm C.Məmmədquluzadə, həm də Sabir müştərək bir şəkildə işlətmişlər.

"Sabir o qədər yüksəkdir ki, "Molla Nəsrəddin" məcmuəsinin açdığı ədəbi cərəyanı Sabirin adı ilə adlandırmaq istəyənlər də vardır. Lakin biz o qədər insafsızlıq, ədalətsizlik etmək istəmirik. Bu cərəyan, bizcə, "Molla Nəsrəddin" cərəyanıdır. Onun ən böyük müəssislərindən biri də Sabirdir ki, öz taleyi ilə "Molla Nəsrəddin"ə borcludur" (9, 234) Həmin illərdə ədəbi gənclik "Molla Nəsrəddin"jurnalı ilə Sabiri qarşı-qarşıya qoyur və "Molla Nəsrəddin" ədəbi cərəyanını Sabir ədəbi cərəyanını adlandırmağı təklif edirdilər. Təbii ki, bütün bunlar qeyri-elmi mübahisə idi.

"Molla Nəsrəddin" jurnalının nəşri böyük şairin ilhamına qüvvət verərək onun yaradıcılığını müəyyən dərəcə istiqamətləndirirdi. Jurnalın ruhu Sabirin də şair təbiətinə tamam müvafiq idi. C.Məmmədquluzadəni düşündürən ictimai siyasi məsələlər Sabiri də eyni dərəcədə məşğul edirdi. Sabir jurnalda inqilabi şeir tribunası tapdığı kimi, jurnal da Sabirin simasında kəsərli satira ustasını tapdı. Sabirin gülüşü birdən-birə milyonların gülüşü oldu. Yalnız savadlılar deyil, hətta avamlar, mədəniyyətdən, siyasətdən uzaq adamlar da şairin duzlu sözlərinə məftun olur, onu əzbərdən təkrar edir, bu yol ilə ictimai-siyasi həyata və mübarizəyə qoşulur, tüfeylilərə gülürdülər.

Mirzə Ələkbər Sabirin "Molla Nəsrəddin" jurnalında dərc edilən satiralarıvə onların imzaları:

| Sıra | Satiranın adı | Nəşr tarixi | İmza |
|---|---|---|---|
| 1. | Millət necə tarac olur olsun, nə işim var?! | 1906, 28 aprel, № 4 | İmzasız |
| 2. | Ol gün ki, sənə xaliq edər lütf bir övlad | 1906, 26 may, № 8 | "Hop-hop" |
| 3. | Bilməm nə görübdür bizim oğlan oxumaqdan?! | 1906, 16 iyun, №11 | "Hop-hop" |
| 4. | Mahi-Kənanın batıb, ey piri-Kənan, qəm yemə! | 1906, 2 iyun, № 9 | İmzasız |
| 5. | Qocalıqdan şikayət ("Əfsus qocaldım, ağacım düşdü əlimdən") | 1906, 23 iyun № 12, | "Hop-hop" |
| 6. | Bakı fələlərinə ("Bu çərxi-fələk tərsinə dövran edir indi") | 1906, 7 iyul, № 14 | İmzasız |
| 7. | Cəhd eylə, sən ancaq nəzəri-xəlqdə pak ol! | 1906, 21 iyul, № 16 | "Hop-hop" |
| 8. | Etdi bu fələk hər kəsə bir tövr yamanlıq | 1906, 4 avqust, № 18 | "Molla Nəsrəddin" |
| 9. | Tərpənmə, amandır, bala, qəflətdən ayılma! | 1906, 11 avqust, №19 | İmzasız |
| 10. | Təhsili-elm ("Təhsili-ülum etmə ki, elm afəti-candır.") | 1906,18 avqust, № 20 | (M.M) |

| | | | |
|---|---|---|---|
| 11. | Ata nəsihəti (Bəsdir, ey oğul, boş yerə bu elmə çalışma) | 1906, 25 avqust, № 21 | "Yaramaz" |
| 12. | Ah eylədiyim nəşeyi-qəlyanın üçündür. | 1906, 1 sentyabr, № 22 | "Hop-hop" |
| 13. | "Həyat"ın "Gop-gop"una cavab ("Bu tifl ki, nuri-bəsərü şireyi-candır") | 1906, 8 sentyabr, № 23 | "Hop-hop" |
| 14. | Barışnalara dair (Ey gül, nə əcəb silsileyi-müşki-tərin var) | 1906, 22 sentyabr, № 25 | "Hop-hop" |
| 15. | "Cavablar cavabı" ("Elm ayineyi-surəti-hal idi, nədən bəs?!") | 1906, 6 oktyabr, № 27 | "Hop-hop" |
| 16. | Bakı pəhlivanlarına (Könlüm bulanır kuçədə cövlanını görcək) | 1906, 6 oktyabr, № 27 | "Hop-hop" |
| 17. | "Adətimiz daş idi dəva günü" | 1906, 27 oktyabr, № 30 | "Hop-hop" |
| 18. | "Küpəgirən qarının qızlara nəsihəti" (Qarı nənənin sözlərini sanma çərəndir.) | 1906, 3 noyabr, № 31 | "Hop-hop" |
| 19. | Uşaqlara ("Ey millətin ümmidi, dilü canı, uşaqlar!") | 1906, 10 noyabr, № 32 | "Hop-hop" |
| 20. | Mən bilməz idim bəxtdə bu nikbət olurmuş | 1906, 10 noyabr, № 34, | "Hop-hop" |
| 21. | Hər nə versən, ver, məbada vermə bir dirhəm zəkat | 1906, 8 dekabr, № 36 | "Molla Nəsrəddin" |
| 22. | Ələman, sərkəş olub... | 1906, 29 dekabr, № 39 | "Hop-hop |
| 23. | Eylə bilirdim ki, dəxi sübh olub | 1907, 6 yanvar, № 1. | "Hop-hop" |
| 24. | Ey fələk, zülmün əyandır... | 1907, 19 yanvar, № 3 | "Hop-hop" |
| 25. | Nolur şirinməzaq etsə məni həlvayi-hürriyyət | 1907, 19 yanvar, № 3 | "Molla Nəsrəddin" |
| 26. | Ey əzizim, xələfim... | 1907, 10 fevral, № 6 | "Hop-hop" |
| 27. | Səradən bir dəli şeytan deyər: insanlar, insanlar! | 1907, 3 mart, № 9 | "Qabaqda gedən zəncirli" |
| 28. | Amalımız, əfkarımız ifnayi-vətəndir | 1907, 10 mart, № 10 | "Qabaqda gedən zəncirli" |
| 29. | Sərhesab ("Səs ucalaşdı, qoymayın!") | 1907, 31 mart, № 13 | "Din dirəyi" |
| 30. | Ağlaşma ("Nə rəvadır əğniyalər baxa ac qalanə, ya rəbb") | 1907, 7 aprel, № 14 | "Fazil" |
| 31. | Tömeyi-nəhar (Çığırma, yat, ay ac toyuq, yuxunda çoxca darı gör) | 1907, 14 aprel, №15 | "Molla Nəsrəddin" |
| 32. | Vay, Vay! Nə yaman müşkuləm düşdü işim, allah! | 1907, 28 aprel, №17 | "Örümçək" |
| 33. | Övradımız, əskarımız əfsaneyi-zəndir | 1907, 5 may, №18 | "Boynuyoğun" |
| 34. | Hə, de görüm, nə oldu bəs, ay balam, iddəaların? | 1907, 12 may, № 19 | İmzasız |
| 35. | Ey ki guyi şərəfi-nəfs beədləstü becud | 1907, 19 may, № 20 | İmzasız |
| 36. | Fələ, özünü sən də bir insanmı sanırsan?! | 1907, 26 may, № 21 | İmzasız |
| 37. | Təni-adəmi şərifəst be nani-adəmiyyət | 1907, 2 iyun, № 22 | İmzasız |
| 38. | Naəhl olana mətləbi andırmaq olurmu?! | 1907, 1 iyul, № 21 | İmzasız |
| 39. | Pah atonnan, nə ağır yatdı bu oğlan, ölübə! | 1907, 8 iyul, № 25 | İmzasız |
| 40. | Leyli-Məcnun ("Ey dövləti-min zəvalı oğlum!") | 1907, 15 iyul, № 26 | İmzasız |
| 41. | Məzlumluq edib başlama fəryadə, əkinçi! | 1907, 24 iyul, № 27 | İmzasız |
| 42. | Əlminnətü-lillah ki, "Dəbistan" da qapandı! | 1907, 29 iyul, № 28 | İmzasız |
| 43. | Uçitellər ("Tövqif edilmişdi mağıl Gəncə siyezdi") | 1907, 12 avqust, № 30 | İmzasız |
| 44. | Vəqta ki, qopur bir evdə matəm | 1907, 20 avqust, № 31 | İmzasız |

| | | | |
|---|---|---|---|
| 44. | Vəqta ki, qopur bir evdə matəm | 1907, 20 avqust, № 31 | İmzasız |
| 45. | Fəxriyyə ("Hərçənd əsirani-qüyudati-zəmanız") | 1907, 26 avqust, № 32 | İmzasız |
| 46. | Qorxuram ("Payi-piyadə düşürəm çöllərə") | 1907, 2 sentyabr, № 33 | İmzasız |
| 47. | Müəllimlər siyezdi ("Baş tutdu müəllimlərin iclası-siyezdi") | 1907, 17 sentyabr, № 35 | İmzasız |
| 48. | Çapma atını, girmə bu meydanə, a molla! | 1907, 17 sentyabr, № 35 | İmzasız |
| 49. | Iki cavablara bir cavab ("Loğalaşıb, a görməmiş, çox da belə fırıldama!") | 1907, 2 oktyabr, № 37 | İmzasız |
| 50. | Soldumu gülzarın, ey faiqi nemanpəsər | 1907, 20 oktyabr, № 39 | İmzasız |
| 51. | Ey on ki, ülumi-mədənidən xəbərin var | 1907, 20 oktyabr, № 39 | İmzasız |
| 52. | Sual-cavab ("-Görmə!-Baş üstə yumaram gözlərim") | 1907, 26 oktybr, № 40 | İmzasız |
| 53. | "Iftardan bir gövtar, ya məcmuədən bir löqmə" ("Atmış niqabi-hüsnin məcmuəyi-təvangər") | 1907, 11 noyabr, № 42 | İmzasız |
| 54. | Bimərhəmət əyanlarına şükr, xudaya! | 1907, 16 dekabr, № 47 | İmzasız |
| 55. | Məktub ("Molla dayı, etmə şərarət belə") | 1907, 23 dekabr, № 48 | İmzasız |
| 56. | Töhmət edir qəzetçilər, -məşəri-nası bir belə!... | 1907, 30 dekabr, № 49 | İmzasız |
| 57. | "Daş, qəlbli insanları neylərdin, ilahi?!" | 1908, 6 yanvar, № 1 | İmzasız |
| 58. | Sual-cavab Cavan-qoca ("-Şəhri-məlumunuzun vəzü qərarı necədir?") | 1908, 13 yanvar, № 2 | İmzasız |
| 59. | "Yadigar" felyetonu | 1908, 13 yanvar, № 2 | "Müxlisiniz Malxulaçı" |
| 60. | Səbir ("Ta gəlirik biz də bir az anlayaq") | 1908, 20 yanvar, № 3 | İmzasız |
| 61. | Fisincan ("Sanma əzdikcə fələk bizləri viranlıq olur") | 1908, 27 yanvar, № 4 | İmzasız |
| 62. | Aldanmaram ki, doğrudur ayinin, ey əmu! | 1908, 3 fevral, № 5 | İmzasız |
| 63. | Bizə nə?! ("Gər bu il xəlqi təbah etdi giranlıq, bizə nə?!") | 1908, 24 fevral, № 8 | İmzasız |
| 64. | Barakallah (Sən beləsənmiş, balam, ay barakallah sənə!...) | 1908, 16 mart, № 11 | İmzasız |
| 65. | Olmur, olmasın! ("Ata: Kuçədə tullan, ey oğul, sənətin olmur, olmasın!) | 1908, 23 mart, №12 | İmzasız |
| 66. | Madam ki, hamiyani-zülmət | 1908, 30 mart, № 13 | İmzasız |
| 67. | Məsləhət ("Ağrın alım, ay Məşəd Sijimqulu") | 1908, 6 aprel, № 14 | İmzasız |
| 68. | Şirvan ("Şerimi, Molla dayı, zənbilə salsan, mənə nə?!") | 1908, 13 aprel, № 15 | İmzasız |
| 69. | Bir cibimdə əskinasım, bir cibimdə ağ mənat | 1908, 13 aprel, № 15 | İmzasız |
| 70. | Ay haray! ("Ay haray, bir neçə şair, neçə şair kimilər") | 1908, 21 aprel, № 16 | İmzasız |
| 71. | Doğru ("Doğru deyən olsaydı yalançı usanardı") | 1908, 21 aprel, № 16 | İmzasız |
| 72. | Dilbər ("Ey dilbəranə tərzdə cövlan edən cocuq!") | 1908, 28 aprel, № 17 | "Hop-Hop" |
| 73. | Bəxtəvər ("Oğlumuz, ay Xansənəm, bir yekə pəlvan imiş") | 1908, 12 may, № 19 | "Hop-Hop" |
| 74. | Üç arvad (Ax, bu uşaqlar necə bədzatdılar!) | 1908, 26 may, № 21 | "Hop-Hop" |

| | | | |
|---|---|---|---|
| 75. | Səbr elə ("Etsə də aləm hamısı zəlzələ") | 1908, 14 iyul, № 28 | "Boynuburuq" |
| 76. | Ay nənə, bir qırmızı saqqal kişi! | 1908, 21 iyul, № 29 | "Qardaşoğlu" |
| 77. | Şikayət ("A kişi, bundan əzəl xəlqdə hörmət var idi") | 1908, 28 iyul, № 30 | "Boynuburuq" |
| 78. | Gavur qızı ("Bilməm nə çarə eyləyim, ay Molla Nəsrəddin!") | 1908, 28 iyul, № 30 | "Qoca əmu" |
| 79. | Osmanlılar, aldanmayın, allahı sevərsiz! | 1908, 4 avqust, № 31 | "Qoca iranlı" |
| 80. | Rəhgüzari-məxluqatda bir möhtaci-məsarif (Ey dərbədər gəzib ürəyi qan olan çocuq) | 1908, 9 mart, № 10 | Imzasız |
| 81. | Mən şahi-qəvişövkətim, iran özümündür! | 1908, 11 avqust, № 32 | "İran qurdu" |
| 82. | Qoyma, gəldi! ("Xandostu, amandı, qoyma, gəldi") | 1908, 18 avqust, № 33 | "Yetim qızcıq" |
| 83. | Uşaqdır ("Ay başı daşdı kişi, dinmə, uşaqdır uşağım!") | 1908, 25 avqust, № 34 | "Tükəzban cici" |
| 84. | Istiqbalımız lağlağdır ("Inanmam, söyləmə artıq ki, feyzabad olur aləm") | 1908, 25 avqust, № 34 | "Qoca əmu" |
| 85. | Cavan. ("Eyvanımız ucadır") | 1908, 25 avqust, № 34 | "Boynuburuq" |
| 86. | Ax!... ("Ax!...necə kef çəkməli əyyam idi") | 1908, 8 sentyabr, № 36 | "Molla Cibişdanqulu" |
| 87. | Açıldıqca sənin sübhün, mənim də hörmətim artır | 1908, 15 sentyabr, № 37 | "Bir alim" |
| 88. | Nəsihət ("Ey xacə, çalış surəti-zahirdə qəşəng ol") | 1908, 22 sentyabr, № 38 | "Boynuburuq" |
| 89. | Mahi-Rəməzandır, yenə meydan da bizimdir! | 1908, 29 sentyabr, № 39 | "Qarınqulu" |

| | | | |
|---|---|---|---|
| 90. | Bu boyda!.. ("Nədir olur bu cocuqlar əyan bu boyda, bu boyda?") | 1908, 6 oktyabr, № 40 | "Dindar" |
| 91. | Nə yazım? ("Şairəm, çünki vəzifəm budur əşar yazım") | 1908, 13 oktyabr, № 41 | "Əbunəsr Şeybani" |
| 92. | Səttərxana ("Hali-məczubim görüb, qare, demə divanədir") | 1908, 20 oktyabr, № 42 | "Məczub" |
| 93. | Qəbla dəximarfaşını, Mir Haşım | 1908, 20 oktyabr, № 42 | "Məsləhəççi" |
| 94. | Mənim tək ("Səd şükr ki, yox indi bu səatdə mənim tək") | 1908, 10 noyabr, № 45 | "Əlhac" |
| 95. | Kişi ("Durma, yıxıl yat hələ, Fəhrat kişi!") | 1908, 14 dekabr, № 50 | "Əbunəsr" |
| 96. | Zahida, gəl soyunaq bir kərə paltarımızı | 1908, 28 dekabr, № 52 | "Molla Nəsrəddin" |
| 97. | Şahnamə ("Şəhim, tacidarım, qəvi şövkətim!") | 1909, 4 yanvar, № 1 | "Yazıldı Eynüddövlə tərəfindən-nazimi Əbunəsr Şeybani" |
| 98. | Arzu ("Nə dərs olaydı, nə mətəb, nə elmü sənət olaydı!") | 1909, 18 yanvar, № 3 | "Duaguyi-millət Əbunəsr Şeybani" |
| 99. | ...Tapmacanın təbiri ("Nə lap kiçik, nə çox da çox iridir") | 1909, 8 fevral, № 6 | "Əbunəsr Şeybani" |
| 100. | Bir bəhanə əldə ünvan etməli bundan sonra! | 1909, 22 fevral, № 8 | "Əbunəsr Şeybani" |
| 101. | Qəmü möhnət füzun oldu | 1909, 1 mart, № 9 | "Əbunəsr Şeybani" |
| 102. | Istiqbal bizimdir (Yetər, canım, çəkil get, etmə çox təbxiri-hürriyyət!) | 1909, 15 mart, № 11 | "Əbunəsr Şeybani" |

| | | | |
|---|---|---|---|
| 102. | Istiqbal bizimdir (Yetər, canım, çəkil get, etmə çox təbxiri-hürriyyət!) | 1909, 15 mart, № 11 | "Əbunəsr Şeybani" |
| 103. | Neyləyim, ey vay! Bu urus başdılar | 1909, 19 aprel, № 16 | "Əbunəsr Şeybani" |
| 104. | Çatlayır, Xanbacı, qəmdən ürəyim | 1909, 26 aprel, № 17 | "Əbunəsr Şeybani" |
| 105. | Mənimki belə düşdü! ("Qəm rahnümun oldu, mənimki belə düşdü!") | 1909, 3 may, № 18 | "Əbunəsr Şeybani" |
| 106. | Vah!...Bu imiş dərsi-üsuli-cədid?! | 1909, 17 may, № 20 | "Əbunəsr Şeybani" |
| 107. | Satıram (Moldayı, salmadı el dil boğaza...) | 1909, 7 iyun, № 23 | "Əbunəsr Şeybani" |
| 108. | Neçin verməyir? ("Bircə bu məşrutəni şah neçin verməyir?") | 1909, 14 iyun, № 24 | "Əbunəsr Şeybani" |
| 109. | Doğrudan da, Məmdəli, qeyrət həlal olsun sənə! | 1909, 12 iyul, № 28 | "Əbunəsr Şeybani" |
| 110. | Nədir, aya, yenə üsyanları iranlıların | 1909, 19 iyul, № 29 | "Əbunəsr Şeybani" |
| 111. | Ey annın ay, üzün günəş, ey qaşların kəman! | 1909, 26 iyul, № 30 | "Əbunəsr Şeybani" |
| 112. | Gülüstan"i-Sədidən bir hekayeyi-mənzuməyə bənzətmə ("Yəki pərsid əz on şəh geştə fərzənd") | 1909, 9 avqust, № 32 | "Məstəli şah Gərguci" |
| 113. | Cəmaət: Zilli-Sultan, bura say döydürüb aldıqlarını! | 1909, 23 avqust, № 34 | "Məstəli şah Gərguci" |
| 114. | Füzuliyə bənzətmə ("Məndə ar olsaydı, ölmək ixtiyar etməzmidim?") | 1909, 13 sentyabr, № 37 | "Yetim Mədəli" |
| 115. | Vaiz, qələm əhlin niyə təhqir eləyirsən? | 1909, 20 sentyabr, № 38 | "Obaşdançı" |
| 116. | Yaşamaq istər isək sırf əvam olmalıyız! | 1909, 11 oktyabr, № 41 | "Güləyən" |
| 117. | Adəmi adəm eyləyən paradır | 1909, 25 oktyabr, № 43 | "Güləyən" |
| 118. | Vermirəm A!... ("Mən ölüm, Molla, bizim Xankişinin qanına bax") | 1909, 29 noyabr, № 48 | "Ağlar güləyən" |
| 119. | Canın çıxsın! ("Canın çıxsın gözündən qanmayaydın!") | 1909, 6 dekabr, № 49 | "Ağlar güləyən" |
| 120. | Yox, yazmaram! ("Molla dayı, çox bərk daşır qazanın!...") | 1909, 20 dekabr, № 51 | "Yarı gönül" |
| 121. | Zahid ölməkdən qabaq məqsudinə çatmaq dilər | 1910, ? yanvar, № 1 | "Ağlar güləyən" |
| 122. | Kim nə deyər bizdə olan qeyrətə?! | 1910, ? yanvar, № 2 | "Ağlar güləyən" |
| 123. | Təşəkkür ("Mollalar, taleimiz oldu əcəb yar bu gün!") | 1910, 21 fevral, № 8 | "(........)" |
| 124. | Altmış illik ömrün oldu səndə bərbad, Ərdəbil! | 1910, 7 mart, № 10 | "Kablayı Feyzullah, nazimi: Ağlar güləyən" |
| 125. | Əhvalpürsanlıq yaxud qonuşma ("Nə xəbər var, məşədi?") | 1910, 14 mart, № 11 | "Imza: (.....)" |
| 126. | Vəz etdiyin inandı, sən amma inanmadın! | 1910, 4 aprel, № 13 | "Imza: (.....)" |
| 127. | Bir bölük boşboğazlıq, heyvərəlik adətimiz | 1910, 11 aprel, № 14 | "Imza: (.....)" |
| 128. | Oxutmuram, əl çəkin! ("Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!") | 1910, 18 aprel, № 15 | "Imza: (.....)" |
| 129. | Asudəlik bu saət yerdən göyə cəhanda | 1910, 25 aprel, № 16 | "(.....)" |
| 130. | Bəlayi-fəqrə düşdün, razı ol, biçarə, səbr eylə! | 1910, 2 may, № 18 | "(.....)" |
| 131. | Sonya, ey dilbəri-pakizə-ədа! | 1910, 9 may, № 18 | "(.....)" |
| 132. | Neçin məktəbə rəğbətim olmayır? | 1910, 16 may, № 19 | "(.....)" |

| | | | |
|---|---|---|---|
| 133. | Qaç, at basdı! ("Qaç, oğlan! Qaç, at basdı! Millət gəlir!") | 1910, 30 may, № 21 | "(.....)" |
| 134. | Yatmısan, molla əmu, Gürcülər içrə hələ sən! | 1910, 27 iyun, № 25 | "(.....)" |
| 135. | Mürtəce xadimlərim, ha indi xidmət vəqtidir! | 1910, 4 iyul, № 26 | "(.....)" |
| 136. | Bir dəstə gül ("Iranlı deyir ki, ədl ilə dad olsun") | 1910, 4 iyul, № 26 | "(.....)" |
| 137. | Bakıda bir kənddə mühavirə ("Kəndçi: "Denilir" elm oxuyun sözləri hər anda bizə") | 1910, 11 iyul, № 27 | "Məclisdə olan" |
| 138. | Bir gül ("Vaiz ki, çıxar minbərə, hey püflər oldu") | 1910, 18 iyul, № 28 | "Bağban" |
| 139. | Ay can! Ay can!...("Düşdü bütün qəzetlər hörmətdən, ay can! Ay can!") | 1910, 8 avqust, № 31 | "(.....)" |
| 140. | Amma, millət a!...("Moldayı, gördün nə iqdam etdi?! Amma, millət a! ") | 1910, 8 avqust, № 31 | "(.....)" |
| 141. | Millətin halı pərişan ola | 1911, 18 yanvar, № 3 | "(.....)" |
| 142. | Müxabirə ("Məmdəli: sevgili sultan babam, söylə, sənin halın nədir?") | 1911, 18 yanvar, № 3 | İmzasız |
| 143. | Avropada Məmdəlinin eşqbazlığı ("Məmdəli: Rəhm et mənə, can madmazel!") | 1911, 25 yanvar, № 4 | İmzasız |
| 144. | Ay can! ("Müftinin rəyi ilə kəşfi-vücuhi-nisvan") | 1911, 29 yanvar, № 5 | İmzasız |
| 145. | El çəkir namımı min lənət ilə | 1911, 29 yanvar, № 5 | "(.....)" |
| 146. | Əzrailin istefası ("Əzrail ərz edərək söylədi: Ey rəbbi-ənam"") | 1911, 7 fevral, № 6 | "(.....)" |
| 147. | Çox da demə sərvətü samanlıyam, ey filan! | 1911, 12 fevral, № 7 | "(.....)" |
| 148. | Dörd dilli qırmanc ("Kəşfi-vəch etmək deyil övrətlərə şərəm həram") | 1911, 12 fevral, № 7 | İmzasız |
| 149. | Bütün Avropada kəmyab ikən, amma Bakıda | 1911, 12 fevral, № 7 | "(.....)" |
| 150. | Molla Ərəszadənin...vay, yenə mabədi var! | 1911, 23 fevral, № 8 | "(.....)" |
| 151. | Əqvale həkimane ("Əz "Səda" qarein bezar ayəd") | 1911, 23 fevral, № 8 | İmzasız |
| 152. | Təbrizdən "Molla Nəsrəddin"ə göndərilən kağızların müfəttişinə ("Ey müfəttiş, yollanan kağızkarı axtarma çox") | 1911, 23 fevral, № 8 | "(.....)" |
| 153. | Vaqieyi-yubileykaranə ("Girdim yerimə başımda qayğu") | 1911, 9 mart, № 10 | "Gözü yuxulu" |
| 154. | Ey pulların səfası, novruz! | 1911, 9 mart, № 10 | "(.....)" |
| 155. | Bayram töhfəsi (Ey tökən mollaların kamın şərbət, novruz!) | 1911, 9 mart, № 10 | "(.....)" |
| 156. | Oylə bir tərcümə kim, ruhi-Şekspir görcək | 1911, 9 mart, № 10 | "(.....)" |

Yekun olaraq qeyd edək ki, "Molla Nəsrəddin" jurnalında Mirzə Ələkbər Sabir imzalı əsərləri zənginliyi ilə diqqəti cəlb edir. Təbii onların hər biri haqqında bir məqalədə bəhs etmək bir qədər çətindir. Bu istiqamətdə araşdırmalarımız davam etdirilir və inanırıq ki, yeni və maraqlı faktlarla qarşılaşacağıq.

## ƏDƏBİYYAT

1.Bayramoğlu A. Mirzə Ələkbər Sabir. Həyatı və əsərləri. Bakı: Qismət, 2003, 320 s.
2.Cəfərzadə Ə. Sabir. Bakı: Azərnəşr, 1989, 227 s
3.Ələkbərli M. Ağlar güləyən haqqında Sabir (Məqalələr məcmuəsi). Bakı: Az SSR EA, 1962, s. 12-53
4. Əlimirzəyev X. C.Məmmədquluzadənin Sabirə münasibəti // ADU-nun elmi əsərləri. İctimai elmlər seriyası, 1962, № 2, s. 45-53
5. Haqverdiyev Əli "Molla Nəsrəddin" haqqında xatıratım, "Hücum" jurnalı, 1933, № 1-2
6. Məmmədov M. İdeal qardaşları. Bakı: Azərnəşr, 1967, 184 s.
7. Ordubadi M.S.Sabir (müqəddimə), "Hophopnamə", Bakı: Azərbaycan Xalq Maarif Komissarlığı, 1922, 476 s.
8. Şərif Ə. Sabir və Molla Nəsrəddin, Sabir (Məqalələr məcmuəsi). Bakı: Az SR EA, 1962, s. 69-92
9. Zamanov A. Sabir gülür. Bakı: Gənclik, 1981, 258 s.

**** Azərbaycan Dövlət Pedaqoji Universiteti,***
***"Ədəbiyyat" kafedrasının müəllimi***
***filologiya üzrə fəlsəfə doktoru***
***E-mail: ulduzkahraman@gmail.com***

**Ulduz Gahramanova**

## SIGNATURES OF MIRZA ALAKBAR SABIR IN THE MAGAZINE "MOLLA NASREDDIN"

According to the 2004 edition of Hop-Hopname, in 1906, Sabir published 22 satires in Molla Nasreddin magazine: 4 of them were unsigned, 14 were Hop-Hop, and 2 were Molla Nasreddin. 2 (M.M.) and "Naughty" signatures; In 1907, there were only 34 satires in the magazine "Molla Nasreddin": 3 of these satires were signed "Hop-Hop", 2 - "Molla Nasreddin", 2 - "Qabaqda geden zanjirli", 23 unsigned, on the ground the remaining 4 signatures "Pillar of Religion", "Fazil", "Spider", "Neck"; In 1908, 40 satires and feuilletons were published: 15 of them were unsigned, 3 were signed "Hop-Hop", 4 were signed "Boynuburuq", 2 were signed "Old man", the rest were printed with various signatures mentioned above. .

Sabir's 24 satires in "Molla Nasreddin" magazine in 1909: 15 of them are "Abu Nasr Sheybani", 2 are "Mastali Shah Garguji", 2 are "Laughing", 2 are "Whites are laughing", the remaining 3 were signed by " Yari Gonul "," Orphan Medali "," Obashdanchi "; 20 satires in "Molla Nasreddin" magazine in 1910: 3 of them were "Ağlar güleyan", 4 were "İmza: (.....)", 10 were "(.....)" signature, and the remaining 2 signatures are "In the Assembly" and "Gardener"; In 1911, 16 satires were published in "Molla Nasreddin" magazine: 5 of them were unsigned, 10 were signed "(.....)", and 1 was signed "Gözü yuxulu"

**Keywords**: *Mirze Elekber Sabir, Jalil Mammadguluzadeh, Molla Nasreddin, magazine, signature, Hop-hop*

**Улдуз Гахраманова**

## ПОДПИСИ МИРЗЫ АЛЕКБЕРА САБИРА В ЖУРНАЛЕ «МОЛЛА НАСРЕДДИН»

Согласно изданию Hop-Hopname 2004 года, в 1906 году Сабир опубликовал 22 сатиры в журнале Molla Nasreddin: 4 из них были без подписи, 14 были Hop-Hop и 2 были Molla Nasreddin. 2 (M.M.) и «Непослушные» подписи; В 1907 г. в журнале «Молла Насреддин» было всего 34 сатиры: 3 из них были подписаны «Хоп-хоп», 2 - «Молла Насреддин», 2 - «Цепь впереди», 23 без подписи, на земле. оставшиеся 4 подписи «Столп религии», «Фазиль», «Паук», «Шея»; В 1908 году 40 сатир и фельетонов: 15 из них были без подписи, 3 подписаны «Хоп-хоп», 4 подписаны «Бойнубурук», 2 подписаны «Старый дядя», остальные напечатаны с различными подписями, упомянутыми выше. .

24 сатиры Сабира в журнале «Молла Насреддин» в 1909 году: 15 из них подписаны «Абу Наср Шейбани», 2 - «Мастали Шах Гаргуджи», 2 - «Смеющимся», 2 - «Смеющимися белыми», остальные 3 подписи - «Половина», «Сирота Мадали», «Обашданчи»; В журнале «Молла Насреддин» в 1910 году было 20 сатир: 3 из них - «Белые смеются», 4 - «Подпись: (.....)», 10 - «(.....)» подпись, а остальные 2 подписи - «в сборке» и «садовник»; В 1911 году в журнале «Молла Насреддин» было опубликовано 16 сатир: 5 без подписи, 10 с подписью «(.....)» и 1 с подписью «Сонный».

**Ключевые слова:** *Мирза Алекпер Сабир, Джалил Мамедгулузаде, Молла Насреддин, журнал, подпись, Хоп-хоп*

*(Filologiya elmləri doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 08.01.2021**
**Son variant 10.02.2021**